**AzRe Təkrarsığorta ASC**

**31 dekabr 2023-cü il tarixinə**

**Beynəlxalq Maliyyə Hesabatı Standartlarına Uyğun Konsolidasiya Edilmiş Maliyyə Hesabatları və Müstəqil Auditorun Hesabatı**

Grant Thornton

**Grant Thornton Azerbaijan**
Damirchi Tower
22nd floor
37 Khojali Avenue
Baku, Azerbaijan

T +994 12 4047537
+994 12 4047538
F. +994 12 4047543
E info@az.gt.com
www.grantthornton.az

# Müstəqil auditorun hesabatı

## AzRe Təkrarsiğorta ASC və onun törəmə müəssisəsinin təsisçilərinə

## Konsolidasiya edilmiş maliyyə hesabatlarının auditi üzrə hesabat

### Rəy

Biz AzRe Təkrarsiğorta ASC -nin və onun törəmə müəssisəsinin ("Qrup") 31 dekabr 2023-ci il tarixinə təqdim edilən konsolidasiya edilmiş maliyyə vəziyyəti haqqında hesabatları, həmin tarixdə başa çatmış il üzrə konsolidasiya edilmiş məcmu gəlir haqqında hesabat, konsolidasiya edilmiş kapitalda dəyişikliklər və pul vəsaitlərinin hərəkəti haqqında hesabatlardan, eləcə də, Mühasibat uçotu siyasəti haqqında əsas məlumatlar daxil olmaqla, konsolidasiya edilmiş maliyyə hesabatlarına qeydlərdən ibarət olan konsolidasiya edilmiş maliyyə hesabatlarının auditini aparmışıq.

Bizim fikrimizcə, müşayiət edənkonsolidasiya edilmiş maliyyə hesabatları, 31 dekabr 2023-ci il tarixinə Qrupun konsolidasiya edilmiş maliyyə vəziyyəti haqqında hesabatı və həmin tarixdə başa çatan konsolidə edilmiş maliyyə nəticələri haqqında hesabatı və pul vəsaitlərinin hərəkəti haqqında hesabatı Beynəlxalq Maliyyə Hesabatları Standartlarına (BMHS) uyğun olaraq düzgün və ədalətli şəkildə əks etdirilmişdir.

#### Rəy üçün əsas

Biz audit yoxlamasını Beynəlxalq Audit Standartları əsasında aparmışıq. Bu standartlar çərçivəsində nəzərdə tutulan öhdəliklərimiz hesabatımızın *Konsolidasiya edilmiş Maliyyə Hesabatları üzrə Auditorların Öhdəlikləri* bölməsində əks olunmuşdur. Biz *Peşəkar Mühasiblərin Etika Məcəlləsi üzrə Beynəlxalq Etika Standartları (Beynəlxalq Müstəqil Standartlar daxil olmaqla)* Şurasının (İESBA) prinsiplərinə uyğun olaraq Qrupdan ayrıyıq və digər etika öhdəliklərimizi bu tələblər və İESBA Kodeksi əsasında həyata keçirmişik. Biz rəyimizin əsasını təşkil edən yetərli və müvafiq audit dəlilləri əldə etdiyimizi hesab edirik.

### Digər Maddə Paraqrafı

Qrupun 31 dekabr 2022-ci il tarixində başa çatan il üzrə konsolidə edilmiş maliyyə hesabatları başqa auditor tərəfindən yoxlanılmış və o, 26 sentyabr 2023-cü il tarixli hesabatı ilə bu barədə dəyişdirilməmiş rəy bildirmişdir.

#### Rəhbərliyin və maliyyə hesabatlarının idarə edilməsi üzrə məsul tərəflərin öhdəlikləri

Rəhbərlik bu konsolidasiya maliyyə hesabatlarının Beynəlxalq Maliyyə Hesabatı Standartlarına uyğun olaraq hazırlanmasına, obyektiv şəkildə təqdim edilməsinə, eləcə də, konsolidasiya hesabatlarının saxtakarlıq və ya səhvlərdən irəli gələn əhəmiyyətli təhriflər olmadan tərtib edilməsi üçün zəruri hesab etdiyi daxili nəzarət sisteminə görə məsuliyyət daşıyır.

Konsolidasiya edilmiş maliyyə hesabatları hazırlayarkən rəhbərlik Qrupun daimilik prinsipi əsasında işini davam etdirmə potensialını qiymətləndirmək, müvafiq olduqda daimilik prinsipi ilə bağlı məsələləri açıqlamaq və rəhbərlik Qrupu ləğv etmək və ya fəaliyyətini dayandırmaq istəyənədək, yaxud bunu etmək üçün real seçimi olmayanadək hesabatlılığın daimilik prinspindən istifadə etmək üzrə məsuliyyət daşıyır.

İdarəçilik üzrə məsul tərəflər Qrupun maliyyə hesabatvermə prosesinə nəzarət etmə öhdəliyi daşıyır.

**Müstəqil auditor hesabatı**

**Azre Təkrarsığorta ASC və onun törəmə müəssisəsinin səhmdarlarına (davamı)**

**Konsolidasiya edilmiş maliyyə hesabatlarının auditi üzrə hesabat (davamı)**

**Konsolidə edilmiş maliyyə hesabatlarının auditi üzrə auditorun öhdəlikləri**

Bizim məqsədimiz bütövlükdə konsolidasiya edilmiş maliyyə hesabatlarında saxtakarlıq və ya səhvlərdən dolayı əhəmiyyətli təhriflərin mövcud olmadığına təminat vermək və rəyimizi əks etdirən auditor hesabatı təqdim etməkdir. Təminat olduqca önəmli olsa da, Beynəlxalq Audit Standartlarına uyğun aparılmış audit yoxlamasının hər zaman mövcud olan təhrifləri aşkarlayacağına zəmanət vermir. Təhriflər saxtakarlıq və ya səhvlərdən irəli gələ və bu konsolidasiya edilmiş maliyyə hesabatları əsasında verilmiş iqtisadi qərarlara ciddi təsir göstərə bilər.

Beynəlxalq Audit Standartları əsasında aparılan audit yoxlamasının bir hissəsi kimi biz audit prosesində peşəkar mühakimə və peşəkar skeptisizm prinsipi tətbiq edirik. Biz həmçinin:

- Konsolidasiya edilmiş maliyyə hesabatlarında saxtalaşdırma və ya səhvlərdən irəli gələn ciddi təhrif risklərini aşkarlayır və təhlil edir, bu risklərə cavab verən audit prosedurları hazırlayır və icra edir və rəyimiz üçün əsas təşkil edəcək kafi və müvafiq dəlil toplayırıq. Saxtakarlıqdan irəli gələn ciddi təhrifləri aşkarlamama riski səhvlərdən qaynaqlanan riskdən daha yüksəkdir, belə ki saxtakarlıq, əlbir olma, saxtalaşdırma, məqsədli buraxma, təhrif və ya daxili nəzarətin yetərsizliyi kimi hallarla əlaqəli olur.

- Qrupun daxili nəzarətinin effektivliyinə dair rəy bildirmək məqsədi ilə deyil, şəraitə uyğun olan audit prosedurlarını tərtib etmək üçün auditə aid daxili nəzarət haqqında rəy əldə edirik.

- İstifadə olunan uçot siyasətlərinin, uçot smetalarının və rəhbərlik tərəfindən açıqlanan əlaqədar məlumatların uyğunluğunu təhlil edirik.

- Rəhbərliyin uçotun davamlılıq prinsipindən istifadəsinin uyğunluğuna və Qrupun davamlılıq prinsipini davam etdirmə imkanına dair ciddi şübhələr yarada biləcək hadisə və ya şərtlərlə əlaqədar ciddi qeyri-müəyyənliyin olub olmaması ilə bağlı əldə edilmiş dəlillər əsasında yekun rəy bildiririk. Əgər əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu qənaətinə gəlsək, biz auditor hesabatımızda diqqəti konsolidasiya edilmiş maliyyə hesabatlarındakı müvafiq açıqlamalara yönəltməli və ya belə açıqlamalar qeyri-adekvat olarsa, rəyimizi dəyişdirməliyik. Bizim yekun rəylərimiz auditor hesabatımızın hazırlanma tarixinədək əldə edilmiş audit dəlillərinə əsaslanır. Bununla belə, gələcək hadisə və şərtlər Qrupun işində davamlılıq prinsipini poza bilər.

- Konsolidasiya edilmiş maliyyə hesabatlarının, o cümlədən açıqlanan məlumatların ümumi təqdimatı, strukturu və məzmunu, həmçinin hesabatların obyektiv təqdimatının əsasını təşkil edən başlıca əqd və hadisələri əks etdirib-etdirmədiyini təhlil edirik.

- Konsolidasiya edilmiş maliyyə hesabatları üzrə rəy bildirmək üçün Qrup daxilindəki qurumlar və işgüzar fəaliyyətlər haqqında maliyyə məlumatları ilə bağlı lazımı müvafiq audit dəlili əldə edirik. Biz qrupun audit yoxlamasının istiqamətləndirilməsi, nəzarəti və icrası üzrə məsuliyyət daşıyırıq. Biz audit rəyimizə görə tam şəkildə cavabdehik.

Biz idarəetməyə məsul olan şəxslərlə digər məsələlərlə yanaşı, auditin planlaşdırılan həcmi və vaxtı və əhəmiyyətli audit tapıntıları, o cümlədən audit zamanı aşkar etdiyimiz daxili nəzarətdə hər hansı əhəmiyyətli çatışmazlıqlar barədə əlaqə saxlayırıq.

Grant Thornton

**GRANT THORNTON**
**Bakı, Azərbaycan Respublikası**
**19 Avqust 2024**

## Konsolidasiya edilmiş maliyyə vəziyyəti haqqında hesabat

| | Qeyd | 2023<br>AZN | Yenilənmiş<br>2022<br>AZN<br>(Qeyd 4) | Yenilənmiş<br>2021<br>AZN<br>(Qeyd 4) |
|---|---|---|---|---|
| **Aktivlər** | | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 6 | **4,579,670** | 4,113,501 | 10,491,032 |
| Banklarda yerləşdirilmiş depozitlər | 7 | **5,755,538** | 13,299,067 | 13,184,025 |
| Amortizasiya olunmuş dəyərlə investisiya | 8 | **109,863,747** | 90,883,097 | 73,429,695 |
| Digər məcmu gəlir vasitəsilə ədalətli dəyərlə əks etdirilən investisiyalar | 9 | **9,335,506** | 7,475,175 | 5,776,341 |
| Məhdudiyyət qoyulmuş pul vəsaitləri | 10 | **5,100,000** | 5,100,000 | 5,100,000 |
| Sığorta müqaviləsi aktivləri | 11 | **3,968,979** | 1,167,355 | 548,200 |
| Təkrarsığorta müqaviləsi aktivləri | 11 | **3,513,702** | 26,699,460 | 3,863,140 |
| Cari vergi aktivi | 12 | **-** | 1,872,366 | 5,011,400 |
| Təxirə salınmış vergi aktivi | 12 | **865,884** | 1,470,123 | 598,848 |
| Qeyri-maddi aktivlər | 13 | **265,229** | 269,710 | 413,457 |
| Binalar və avadanlıqlar | 14 | **713,941** | 690,610 | 480,866 |
| İstifadə hüquqlu aktivlər | 15 | **942,024** | 389,466 | 771,088 |
| Digər aktivlər | 16 | **846,951** | 158,092 | 215,397 |
| **Cəmi aktivlər** | | **145,751,171** | 153,588,022 | 119,883,489 |
| **Öhdəliklər** | | | | |
| Sığorta müqaviləsi üzrə öhdəliklər | 11 | **43,615,915** | 64,763,149 | 36,306,801 |
| Təkrarsığorta müqaviləsi öhdəlikləri | 11 | **209,581** | 35,239 | 47,977 |
| Borclar | 17 | **-** | 3,390,737 | - |
| Cari vergi öhdəliyi | 12 | **1,022,374** | 1,007,100 | 544,193 |
| İcarə öhdəliyi | 18 | **977,673** | 415,949 | 783,928 |
| Digər kreditor borcları | 19 | **1,835,477** | 1,109,531 | 3,340,557 |
| **Cəmi öhdəliklər** | | **47,661,020** | 70,721,705 | 41,023,456 |
| **Kapital** | | | | |
| Nizamnamə kapitalı | 20 | **50,000,000** | 50,000,000 | 50,000,000 |
| Digər məcmu gəlir vasitəsilə ədalətli dəyərlə əks etdirilən investisiya üzrə artıqlıq | | **2,724,100** | 1,300,247 | 133,561 |
| Bölüşdürülməmiş mənfəət | | **43,311,074** | 29,557,396 | 26,805,709 |
| **Qrupun səhmdarlarına aid olan kapital** | | **96,035,174** | 80,857,643 | 76,939,270 |
| **Nəzarət olunmayan iştirak payı** | | **2,054,977** | 2,008,674 | 1,920,763 |
| **Cəmi kapital** | | **98,090,151** | 82,866,317 | 78,860,033 |
| **Cəmi öhdəliklər və səhmdar kapitalı** | | **145,751,171** | 153,588,022 | 119,883,489 |

31 dekabr 2023-cü il tarixində başa çatan il üzrə konsolidə edilmiş maliyyə hesabatları: (müqayisəli məlumatlar daxil olmaqla) 19 avqust 2024-cü il tarixində İdarə Heyəti adından aşağıdakı kimi buraxılması təsdiq edilmiş və imzalanmışdır:

**Mr. Vusal Abbasov**
**İdarə Heyətinin Sədri**

**Mrs. Lalə Əfəndiyeva**
**Baş Maliyyə Direktoru**

**AzRe Təkrarsığorta ASC və onun törəmə müəssisəsi**
**31 dekabr 2023-cü il tarixində başa çatmış il üçün**

## Konsolidasiya edilmiş məcmu gəlir haqqında hesabat

| | Qeyd | 2023 | Yenidən hesablanmış 2022 (Qeyd 4) |
|---|---|---|---|
| | | **AZN** | AZN |
| Sığorta gəliri | 11 & 21 | **71,982,468** | 53,435,639 |
| Sığorta xidməti xərcləri | 11 & 22 | **(67,309,824)** | (44,757,699) |
| **Sığorta xidmətlərinin nəticələri Təkrarsığorta müqavilələri bağlanmazdan əvvəl** | | **4,672,644** | 8,677,940 |
| Təkrarsığorta haqlarının bölüşdürülməsi | 11 | **(9,849,635)** | (5,559,142) |
| Baş vermiş iddialar üzrə Təkrarsığortadan bərpa oluna bilən məbləğlər | 11 | **36,256,130** | 23,644,830 |
| **Saxlanılan Təkrarsığorta müqavilələri üzrə xalis xərclər** | | **26,406,495** | 18,085,688 |
| **Sığorta xidmətlərinin nəticələri** | | **31,079,139** | 26,763,628 |
| Verilmiş sığorta müqavilələri üzrə sığorta maliyyəsi xərcləri | 11 & 23 | **(3,494,365)** | (4,644,524) |
| Saxlanılan Təkrarsığorta müqavilələri üzrə Təkrarsığorta maliyyə gəlirləri | 11 & 23 | **811,416** | 412,617 |
| **Sığortanın xalis maliyyə nəticələri** | | **28,396,190** | 22,531,721 |
| Maliyyə gəliri | 24 | **6,779,484** | 5,612,172 |
| Əməliyyat xərcləri | 25 | **(8,755,796)** | (8,107,743) |
| Maliyyə xərcləri | 26 | **(84,198)** | (64,021) |
| Digər gəlir/(xərc) - xalis | 27 | **722,173** | (413,160) |
| **Vergidən əvvəlki mənfəət** | | **27,057,853** | 19,558,969 |
| **Vergi:** | | | |
| - gəlir vergisi xərcləri | 12 | **(6,265,111)** | (5,108,084) |
| - təxirə salınmış vergi (xərc)/gəlir | 12 | **(232,173)** | 1,132,780 |
| **İL ÜZRƏ MƏNFƏƏT** | | **20,560,569** | 15,583,665 |
| **İl üzrə digər məcmu gəlir/(zərər).** | | | |
| Sonradan mənfəət və ya zərərə yenidən təsnifləşdirilə bilən maddələr: | | | |
| Təxirə salınmış vergi öhdəliyi çıxılmaqla ədalətli dəyərlə digər məcmu gəlir vasitəsilə investisiya üzrə mənfəət/(zərər) | | **1,488,265** | (148,401) |
| **İL ÜZRƏ CƏMİ MƏCMU GƏLİR** | | **22,048,834** | 15,435,264 |
| **İl üzrə mənfəətin:** | | | |
| - Qrupun səhmdarlarına aid olan hissəsi | | **19,828,678** | 14,914,348 |
| - Nəzarət olunmayan iştirak payına aid olan hissəsi | | **731,891** | 669,317 |
| | | **20,560,569** | 15,583,665 |
| **İl üçün ümumi məcmu gəlir:** | | | |
| - Qrupun səhmdarlarına aid olan hissəsi | | **21,252,531** | 14,780,787 |
| - Nəzarət olunmayan iştirak payına aid olan hissəsi | | **796,303** | 654,477 |
| | | **22,048,834** | 15,435,264 |

## Konsolidasiya edilmiş kapitalda dəyişiklik haqqında hesabat

| | Nizamnamə kapitalı | Sair məcmu gəlir vasitəsilə ədalətli dəyərlə əks etdirilən maliyyə aktivləri üzrə ədalətli dəyər ehtiyatları | Bölüşdürülməmiş mənfəət | Qrupun səhmdarlarına aid olan məcmu kapital | Nəzarət olunmayan iştirak payı | Cəmi kapital |
|---|---|---|---|---|---|---|
| | **AZN** | **AZN** | **AZN** | **AZN** | **AZN** | **AZN** |
| 1 yanvar 2022-ci il  il tarixinə olan qalıq, əvvəlki hesabatda qeyd olunduğu kimi | 50,000,000 | 133,561 | 25,928,311 | 76,061,872 | 2,012,160 | 78,074,032 |
| MHBS 17-nin ilkin tətbiqinin təsiri (qeyd 4) | - | - | 877,398 | 877,398 | (91,397) | 786,001 |
| 1 yanvar 2022-ci il tarixinə yenilənmiş qalıq | 50,000,000 | 133,561 | 26,805,709 | 76,939,270 | 1,920,763 | 78,860,033 |
| İl üzrə mənfəət - (yenilənmiş) | - | - | 14,914,348 | 14,914,348 | 669,317 | 15,583,665 |
| Digər ümumi gəlir | - | (133,561) | - | (133,561) | (14,840) | (148,401) |
| Ümumi məcmu gəlir - (yenilənmiş) | - | (133,561) | 14,914,348 | 14,780,787 | 654,477 | 15,435,264 |
| *Səhmdarlarla olan əməliyyatlar:* | | | | | | |
| Divident ödənişləri | - | - | (11,857,500) | (11,857,500) | (617,500) | (12,475,000) |
| **31 Dekabr 2022-ci il üçün yenilənmiş qalıq** | 50,000,000 | - | 29,862,557 | 79,862,557 | 1,957,740 | 81,820,297 |
| MHBS 9-un ilkin tətbiqinin təsiri (qeyd 4.2) | - | 1,300,247 | (305,161) | 995,086 | 50,934 | 1,046,020 |
| **31 Dekabr 2022-ci il üçün yenilənmiş qalıq** | 50,000,000 | 1,300,247 | 29,557,396 | 80,857,643 | 2,008,674 | 82,866,317 |
| İl üçün mənfəət | **-** | **-** | **19,828,678** | **19,828,678** | **731,891** | **20,560,569** |
| Digər ümumi gəlir | **-** | **1,423,853** | **-** | **1,423,853** | **64,412** | **1,488,265** |
| **Ümumi məcmu gəlir** | **-** | **1,423,853** | **19,828,678** | **21,252,531** | **796,303** | **22,048,834** |
| *Səhmdarlarla olan əməliyyatlar:* | | | | | | |
| Divident ödənişi (qeyd 20) | **-** | **-** | **(6,075,000)** | **(6,075,000)** | **(750,000)** | **(6,825,000)** |
| **31 dekabr 2023-cü il tarixinə qalıq** | **50,000,000** | **2,724,100** | **43,311,074** | **96,035,174** | **2,054,977** | **98,090,151** |

## Konsolidasiya edilmiş pul vəsaitlərinin hərəkəti haqqında hesabat

| | Qeyd | 2023<br>AZN | Yenilənmiş<br>2022<br>AZN |
|---|---|---|---|
| **ƏMƏLİYYAT FƏALİYYƏTLƏRİ** | | | |
| İl üzrə mənfəət | | **27,057,853** | 19,558,969 |
| **Qeyri-əməliyyat və nağdsız əməliyyatlar üçün düzəlişlər:** | | | |
| Əsas vəsaitlərin amortizasiyası | 13 | **57,746** | 171,991 |
| İstifadə hüququ aktivlərinin köhnəlməsi | 14 | **273,778** | 205,203 |
| Qeyri-maddi aktivlərin amortizasiyası | 15 | **388,414** | 381,622 |
| Amortizasiya olunmuş maya dəyəri ilə investisiyanın (bərpa)/qiymətsizləşməsi | 8 | **(125,309)** | 268,311 |
| Banklardakı depozitlər üzrə ehtiyatın ləğvi | 7 | **(86,135)** | - |
| Banklardakı depozitlər üzrə faiz gəlirləri | 24 | **(788,486)** | (846,501) |
| Amortizasiya olunmuş maya dəyəri ilə investisiyalar üzrə | 24 | **(5,990,998)** | (4,765,671) |
| İcarə öhdəlikləri üzrə maliyyə xərcləri | 26 | **84,198** | 64,021 |
| **Dövriyyə kapitalında dəyişikliklərdən əvvəl əməliyyat pul vəsaitlərinin hərəkəti** | | **20,871,061** | 15,037,945 |
| **Dövriyyə kapitalında dəyişikliklər:** | | | |
| Təkrarsığorta müqaviləsi üzrə aktiv və öhdəliklər – xalis | | **20,384,134** | (23,455,475) |
| Sığorta müqaviləsi üzrə aktiv və öhdəliklər – xalis | | **(20,972,892)** | 28,443,610 |
| Digər aktivlər | | **(688,859)** | 57,305 |
| Digər kreditor borcları | | **725,946** | (1,531,026) |
| | | **20,319,390** | 18,552,359 |
| Vergi ödənişi | | **(4,377,471)** | (1,506,143) |
| **Əməliyyat fəaliyyətindən əldə edilən xalis pul vəsaitləri** | | **15,941,919** | 17,046,216 |
| **İNVESTİSİYA FƏALİYYƏTLƏRİ** | | | |
| Banklardakı depozitlərdən əldə edilən gəlirlər – xalis | | **8,418,150** | 580,422 |
| İnvestisiya qiymətli kağızlarının amortizasiya olunmuş dəyərlə alınması - xalis | | **(12,864,343)** | (13,344,715) |
| Binalara və avadanlıqlara əlavələr | | **(299,390)** | (486,578) |
| Qeyri-maddi aktivlərə əlavələr | | **(53,265)** | (34,189) |
| Binaların və avadanlıqların atılmasından əldə edilən gəlirlər | | **2,281** | 71,631 |
| Qeyri-maddi aktivlərin xaric edilməsindən əldə edilən gəlirlər | | **-** | 5,945 |
| İnvestisiya fəaliyyətlərində istifadə olunan xalis pul vəsaitləri | | **(4,796,567)** | (13,207,484) |

## Konsolidasiya edilmiş pul vəsaitlərinin hərəkəti haqqında hesabat

| | Qeyd | 2023<br>AZN | Yenilənmiş<br>2022<br>AZN |
|---|---|---|---|
| **MALİYYƏLƏŞMƏ FƏALİYYƏTLƏRİ** | | | |
| Ödənilmiş dividentlər | 20 | **(6,825,000)** | (13,175,000) |
| Borclardan əldə edilən gəlirlər | 17 | **-** | 6,911,178 |
| Borcların qaytarılması | 17 | **(3,390,737)** | (3,520,441) |
| Ödənilmiş icarə öhdəlikləri | 18 | **(463,446)** | (432,000) |
| **Maliyyələşmə fəaliyyətində istifadə olunan xalis pul vəsaitləri** | | **(10,679,183)** | (10,216,263) |
| | | | |
| Pul vəsaitləri və onların ekvivalentlərində xalis dəyişiklik | | **466,169** | (6,377,531) |
| İlin əvvəlində nağd və nağd pul ekvivalentləri | | **5,241,464** | 11,618,995 |
| **İlin sonunda nağd və nağd pul ekvivalentləri** | 6 | **5,707,633** | 5,241,464 |